

# Duman Yalçın

*Pərya...*
*Ey dağların oğul çiçəyi Pərya*
*Səni, Leylini düşünmədən Məcnunlamışam dağları*
*Və ərə vermişəm cünunları*
*Və şəhərlərin reklam kağızını*
*Radiolarda boşamışam, ah ey...*
*Ey dünya pərisinin salam kəlməsi*
*Və siyasətçilərin ən doğru sözü*
*Əllərin yetimxana uşaqlarının sığınacaq evidir*
*Əllərini qoy gözlərinə*
*Çikaqoda sönsün çıraqlar*
*Və işıqlansın İzmirdə körpə uşaqların otağı*
*Qızınsın üç kömürçü barmaqlarını*
*Pərya*
*Ey turat surəsinin Məryəm morluğu*
*Səni fəlsəfə düşünsəm də*
*Gəraylı ağlamışam*
*Və qəzəl oxumuşam səni ağaclara*
*Qoy baharla kasıblasın qıza*
*Və adını qoy işçilər dilinə düşsün Romda*
*Riyaz xiyabanlarına sərilsin*
*Ya əyyohəseyyedi: - Pərya.*
*- ƏleykümPərya, ya əxi*
*Və Ankara söyləsin*
*Gününüz Təbriz kefi olsun Pərya*
*Və Meşgin söyləsin sənə*
*Vavahuuuuuu*
*Pah atovnanPəryaaa...*

Təqdim etdi: Əli Çağla

Türküstan.- 2025.- 8-14 aprel, №11.- S.14.